**"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

müvafiq qanunvericilik aktlarının "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 39-cu maddəsinə uyğun olaraq prokurorluğun maddi-texniki təminatı və maliyyələşdirilməsi məsələlərini həll etsin;

öz səlahiyyətləri daxilində bu Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Prokurorluğuna tapşırılsın ki, iki ay müddətində:

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə uyğun olaraq Baş Prokurorluğun strukturuna və ştat vahidlərinin ümumi sayına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 29-cu maddəsinə uyğun olaraq prokurorluq işçilərinin ixtisas imtahanlarının keçirilməsi qaydalarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 41-ci maddəsinə uyğun olaraq prokurorluğun rəsmi embleminin, prokurorluq işçilərinin xüsusi geyim formasının və xidməti vəsiqəsinin təsvirinə dair Qanun layihələrini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 42-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla prokurorluğun statistik hesabatının vahid formasını hazırlasın və statistik hesabatların aparılmasının vahid qaydalarını müəyyən etsin;

öz səlahiyyətləri daxilində bu Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Nəzərə alınsın ki:

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinin birinci, ikinci və üçüncü hissələrinin, 27-ci maddəsinin ikinci hissəsinin, 28-ci maddəsinin birinci hissəsinin, 29-cu maddəsinin üçüncü hissəsinin və 45-ci maddəsinin müddəaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi qüvvəyə mindikdən sonra tətbiq olunacaqdır.

4. Müəyyən edilsin ki:

*"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 11-1-ci maddəsinin birinci və ikinci hissələrində , 39-cu maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*[1]

*həmin Qanunun 20-ci maddəsinin altıncı hissəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;*[2]

həmin Qanunun 35-ci maddəsinin səkkizinci hissəsində göstərilmiş "müvafiq icra hakimiyyəti orqanları" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, *Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti* və Dövlət Gömrük Komitəsi nəzərdə tutulur;[3]

həmin Qanunun 42-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Dövlət Statistika Komitəsi həyata keçirir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 24 dekabr 1999-cu il
232

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 24 iyul 2014-cü il tarixli **235** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 25 iyul 2014-cü il, 158; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 817**)
2. 20 oktyabr 2016-cı il tarixli **1080** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 oktyabr 2016-cı il, 233, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 10, maddə 1639**)
3. 20 fevral 2019-cu il tarixli **531** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 fevral 2019-cu il, 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 230**)
4. 7 may 2021-ci il tarixli **1333** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 may 2021-ci il, 97 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 440**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 24 iyul 2014-cü il tarixli **235** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 25 iyul 2014-cü il, 158; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 817**) ilə 4-cü hissənin ikinci və üçüncü abzaslar müvafiq olaraq üçüncü və dördüncü abzaslar hesab edilmişdir və yeni məzmunda ikinci abzas əlavə edilmişdir.

20 oktyabr 2016-cı il tarixli **1080** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 oktyabr 2016-cı il, 233, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 10, maddə 1639**) ilə 4-cü hissəsinin ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir.

7 may 2021-ci il tarixli **1333** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 may 2021-ci il, 97 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 440**) ilə 4-cü hissənin ikinci abzasında "**hissələrində**" sözündən sonra "**, 39-cu maddəsinin beşinci hissəsində**" sözləri əlavə edilmişdir.

[2] 20 oktyabr 2016-cı il tarixli **1080** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 oktyabr 2016-cı il, 233, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 10, maddə 1639**) ilə 4-cü hissəsinin üçüncü və dördüncü abzaslar müvafiq olaraq dördüncü və beşinci abzaslar hesab edilmişdir və yeni məzmunda üçüncü abzas əlavə edilmişdir.

[3] 24 iyul 2014-cü il tarixli **235** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 25 iyul 2014-cü il, 158; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 07, maddə 817**) ilə 4-cü hissənin üçüncü abzasında "**Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun**" sözləri "**həmin Qanunun**" sözləri ilə əvəz edilmişdir.

20 fevral 2019-cu il tarixli **531** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 fevral 2019-cu il, 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 230**) ilə 4-cü hissəsinin dördüncü abzasında "**Milli Təhlükəsizlik Nazirliyi**" sözləri "**Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti**" sözləri ilə əvəz edilmişdir.